# Azərbaycan - Çin münasibətləri

**Qısa tarixi məlumat:**

ÇXR 27 dekabr 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanımışdır. Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər 2 aprel 1992-ci ildə qurulmuşdur. 1992-ci ilin avqust ayında ÇXR-in Azərbaycan Respublikasında səfirliyi açılmışdır. 3 sentyabr 1993-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi AR-in ÇXR-də səfirliyinin açılması barədə qərar qəbul etmişdir. Hal-hazırda Azərbaycan Respublikasının ÇXR-dəki səfiri Lətif Qəndilovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Dövlət başçıları:**

**1994-cü il 7-10 mart** - Prezident Heydər Əliyev ÇXR-ə rəsmi səfər etmişdir.

**2005-ci il 17-19 mart** - Prezident İlham Əliyev ÇXR-ə rəsmi səfər etmişdir.

**2008-ci il 8 avqust** - Prezident İlham Əliyev ÇXR-ə səfər etmişdir (XXIX Pekin Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimi).

**Xarici İşlər Nazirləri:**

**1994-cü il yanvar-** AR xarici işlər naziri Həsən Həsənov ÇXR-ə rəsmi səfər etmişdir.

**1996-ci il aprel** – ÇXR-in xarici işlər naziri Çien Çiçen (Qian Qichen) Azərbaycana rəsmi səfər etmişdir.

**2000-ci il oktyabr -** AR xarici işlər naziri Vilayət Quliyev ÇXR-ə rəsmi səfər etmişdir.

**2004-cü il oktyabr** – ÇXR-in xarici işlər naziri Li Çjaosinq (Li Zhaoxing) Azərbaycana rəsmi səfər etmişdir.

**2005-ci il fevral -** AR xarici işlər naziri Elmar Məmmədyarov ÇXR-ə rəsmi səfər etmişdir.

**2010-cu il 16-17 may** – ÇXR-in xarici işlər naziri Yanq Cieçı Azərbaycana səfər etmişdir.

**2014-cü il 30 iyun-2 iyul** – AR xarici işlər naziri Elmar Məmmədyarov ÇXR-ə rəsmi səfər etmişdir.

**Parlamentlərarası əlaqələr:**

**1996-cı il dekabr və 2002-ci il aprel** - Azərbaycan Respublikası Milli Məclisinin Sədri Murtuz Ələsgərov ÇXR-ə rəsmi səfər etmişdir.

**2000-ci il iyun -** Ümumçin Xalq Nümayəndələri Yığıncağı (ÜXNY) Daimi Komitəsinin sədri Li Pen Azərbaycana rəsmi səfər etmişdir.

Azərbaycan-Çin parlamentlərarası işçi qrupun rəhbəri Siyavuş Novruzovdur.

**Humanitar sahədə əməkdaşlıq:**

**Səfərlər:**

**Dekabr 1997-ci ildə** Azərbaycan Respublikasının səhiyyə naziri Əli İnsanov Çin Xalq Respublikasına səfər etmişdir.
**İyun 2006-cı ildə** Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov Çin Xalq Respublikasına səfər etmişdir.
**27 avqust 2007-ci ildə** Azərbaycan Respublikasının səhiyyə naziri Oqtay Şirəliyev Çin Xalq Respublikasına səfər etmişdir.
**25 may 2011-ci ildə** Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Çin Xalq Respublikasına səfər etmişdir.

**Mədəni və humanitar tədbirlər:**

**10 avqust 2008-ci ildə** Pekində Azərbaycan mədəniyyət günləri keçirilmişdir.
**23-27 may 2011-ci ildə** Çin Xalq Respublikasında Azərbaycan mədəniyyət günləri keçirilmişdir.
**10-14 dekabr 2012-ci ildə** Azərbaycanda Çin Xalq Respublikasının mədəniyyət günləri keçirilmişdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında 50 sənəd imzalanmışdır.

*Son yenilənmə tarixi: 18.09.2014*